UOT 94

TALEH CƏFƏROV
ADPU-nun Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının dos.v.i.e, tarix üzrə fəlsəfə doktoru
taleh.ceferov.83@mail.ru

ŞƏBNƏM CƏFƏROVA
BDU-nun Türk xalqları tarixi kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru
shabnamhaciyeva@gmail.com

TÜRKİYƏ DİASPORUNUN FORMALAŞMASI PROSESİ

DOI: https://doi.org/10.36719/2708-065X/107/75-80

Türkiyə Cümhuriyyətinin diaspor təşkilatları XX əsrin 50-60-cı illərindən etibarən yaranmağa başladı. Bu o deməkdir ki, türk diasporunun təşəkkülü və formalaşması son 60-70 ildə baş tutmuşdur. Qərbi Avropaya üz tutan ilk türk miqrantlar əvvəlçə işçi qüvvədən ibarət olmuş, sonralar bu sıraya intellektual kəsim də daxil olmuşdur. Bu gün dünyanın 192 ölkəsində türk diaspor təşkilatları mövcuddur. Təkcə Qərbi Avropa ölkələrində (Almaniya, Fransa, Niderland, Belçika) 5 milyon nəfərdən artıq türk diasporu fəaliyyət göstərir. Onların sərvətinin ümumi məbləği 50 milyard dollardan artıqdır. Qərbi Avropadakı türk diasporunun ən mütəşəkkil olduğu ölkələr sırasında Almaniya, Fransa öncül yerlərdən birini tutur.

Açar sözlər: Türkiyə diasporu, lobbi, diaspor təşkilatları, struktur.

Giriş. Hər bir xalqın siyasi tarixində mühüm rol oynayan komponentlərdən biri də diaspordur. Diasporların yaranıb formalaşmasını uzun bir prosesin nəticəsi kimi qiymətləndirilməlidir. Diasporun təşəkkülü və formalaşmasında iki mühüm amili xüsusilə qeyd etmək lazımdır: birincisi, hər hansı bir xalqın nümayəndələrinin öz ölkəsinin etnik qruplarından kənara, xaricə mühacirət etməsi; ikincisi, artıq onun xaricdə, qürbətdə olan hissəsinin təbii biloloji yolla artıb çoxalmasıdır. Lakin burada baş verən proseslərin ilkin şərhi və əhəmiyyəti çıxış nöqtəsini məhz mühacirət aktının baş verməsi təşkil edir. Mühacirət hallarının kütləvi xarakter alması isə öz növbəsində diasporun istər-istəməz yaranıb ortaya çıxmasını zəruri və qaçılmaz edir [1, s.10-11].

"Diaspor" yunan dilindəki "diaspora" terminindən götürülmüşdür. Bu termin "diasreikein" səpələnmə, dağılma, yayılma, parçalanma sözlərindən alınmışdır. "Dia" ön morfemi ilə "speirein" felinin birləşməsindən yaranan "diaspeira" termini antik yunan əsatirlərində, dini ədəbiyyatlarda məhz səpələmək(ordunu), dağıtmaq (burada pul nəzərdə tutulur-T.C.) və yaymaq mənasında işlədilib [2, s.25].

Türk tarixçisi Fırat Yaldızın fikrincə, diaspor ifadəsi dia və sporos kəlimələrindən əmələ gəlmişdir və "sağa sola dağılmış toxumlar" mənasını ifadə etməkdədir. Fəqət çağdaş anlamda "etnik qrup" anlamında da işlədilir [3, s.383].

Diaspor termini 1970-1980-ci illərdən başlayaraq Ana Vətən xaricində yaşayan bir kütlə anlamına gəlməkdədir. Öz ölkələri ilə güclü bağlar qurmuş olan miqrantlar mühacir diasporları formalaşdırmağa başlamışdır. 1990-cı illərdə siyasətin və iqtisadiyyatın qloballaşması prosesində qaçqınların (miqrantların) anavətənləri ilə əlaqələrini asanlıqla qoruya bildikləri üçün diasporun tanıtımı daha açıq hala gəlmişdir. Diaspor diplomatiyası diasporların həm köç edilən ölkələrdə yaşayan vətəndaşlarını işlədən dövlətlər diaspor diplomatiyası həyata keçirməkdə uğurlu səy göstərmişdir.

1991-ci ildə nəşrə başlayan "Diaspora" jurnalının redaktoru milliyətcə erməni Xaçiq Tölölyan 1998-ci ildə Parisdə keçirilən konfransda jurnalın yazarlarının 38 müxtəlif qrupları təsvir etmək üçün "diaspora" ifadəsini işlətdiyini bildirib. Bu tərif icma və doğma ölkə arasında fiziki, mədəni və emosional əlaqələrin olub-olmamasından və ya nə dərəcədə olmasından asılı olmayaraq dağılmağa səbəb olan şəraitdən asılı olmayaraq ilk vətənlərindən fiziki olaraq ayrılmış insanları əhatə edir [4, s.96].

İndiyədək diaspor anlayışı ilə bağlı əsasən, iki baxış mövcuddur ki, onlardan birincisi ənənəvi diaspor yanaşmasıdır. Robin Cohen, William Safran və James Clifford kimi diaspor araşdırmaları aparmış şəxslərin bu mövzudakı təsbitləri əhəmiyyətlidir. Robin Cohen diasporların ümumi xüsusiyyətlərini aşağıdakı kimi sıralamışdır: 1. İlkin vətəndən iki və ya daha çox yad əraziyə dağılması, çox vaxt travmatik olması; 2. Vətənin iş axtarmaq, ticarət arxasınca ya da daha çox sümürgəçi əməlləri üçün genişlənməsi; 3. Yer, tarix və digər amillər də daxil olmaqla anavətənlə bağlı kollektiv bir hafizəyə sahib olma; 4. Ata-baba yurdunun ideallaşdırılması və yaradılışına qədər sürdürülməsinə olan bağlılıq; 5. Kollektiv təsdiq tələb edən qayıdış hərəkatının inkişafı; 6. Güclü etnik qrup, şüur, ortaq tarixə və taleyə inanmaq; 7. Ev sahibi cəmiyyətlərlə problemli münasibət, ən azı qəbul edilməməsi və ya başqa bir fəlakət ehtimalı; 8. Digər yaşayış məntəqələrindəki etnik üzvlərlə empatiya və həmrəylik hissi; 9. Ev sahibi ölkələrdə əksəriyyət üçün tolerant olan fərqli, yaradıcı və zənginləşdirici həyat imkanları [5, s.17].

William Safrana görə, bir qrupun diaspor kimi təyin olunması üçün onun altı əsas xüsusiyyəti olmalıdır: 1. Miqrasiya yolu ilə ortaq mərkəzdən iki və ya daha çox bölgəyə dağılma; 2. Ortaq keçmiş, mif və ya baxışın saxlanması; 3. Qəbul edən ölkəyə tam mənsubiyyət hiss etməmək; 4. Vətənin yaşamaq üçün ideal ölkə olduğuna inam və vətənə qayıtmaq arzusu; 5. Anavətənin inkişafı və yüksəlməsi üçün əməkdaşlığın zəruri olması düşüncəsi; 6. Anavətənlə qarşılıqlı əlaqədə (ticarət, qohumluq, siyasi və s.) olmaq [6, s.83].

Ceyms Cliffordun fikrincə, diasporlar ilkin mərkəzdən ən azı iki çevrəyə yayılan, vətənləri ilə bağlı yaddaş, baxış və ya əfsanə saxlayan, ev sahibi ölkə tərəfindən tam olaraq qəbul edilməyən və bəlkə də qəbul edilməyəcəyinə inanan, vətənlərini son qayıdış yeri hesab edən, özlərini vətənin saxlanmasına və bərpasına həsr etmiş və vətənlə daimi əlaqəni quran, sürgün edilmiş və ya azlıqda qalan toplumlar nəzərdə tutulur [7, s.10]. Həmçinin Cliffordun fikrincə, diaspor şüuru həm müsbət, həm də mənfi şəkildə yaradılır. O, irqi ayrı-seçkilik və təcrid yolu ilə mənfi şəkildə yaradılsa da, diasporun özünü müəyyən etməsi və onu iqtisadi cəhətdən aşağı maaşla və bir qul kimi işlətməklə gücləndirilir. [7, s.24-25]. İkinci yanaşma kimi, müasir dövrdə diaspor transmillilik və qloballaşma ilə əlaqələndirilir. Bu gün diaspordan istifadə torpağa əkilmiş, torpağın müxtəlif nöqtələrinə yayılan, böyüyən və öz şəxsiyyəti ilə məhsul verən toxuma bənzədilir. Torpağa əkilən toxumların bir hissəsi hər hansı məhsula çevrilmədən yoxa çıxdığı kimi diasporlar da dağıldıqları torpaqlarda kimliklərini itirərək assimilyasiya olunurlar. Ancaq yeni dövrdə birlikdə texnoloji inkişaflar sayəsində diasporlar kimliklərini itirmək və assimilyasiyaya məruz qalmaq təhlükəsinə qarşı daha davamlıdırlar. Bu vəziyyət diasporları yaşamağa başladıqları yeni yerlərdə mədəniyyətləri, kimlikləri və vətənləri ilə münasibətləri qoruyub saxlamaqla varlıqlarını daim inkişaf etdirirlər.

Diasporları həm də ev sahibi ölkənin mühitinə və institutlarına uyğunlaşarkən ölkələri ilə maddi və ya emosional əlaqələr saxlayan immiqrant icması kimi də istifadə etmək olar. Buradakı fərq ondan ibarətdir ki, bütün immiqrantlar diaspor yaratmır. Diasporlar immiqrantların özləri ilə digər diasporlar arasında sərhədləri olan icmalardan ayrı icmalar təşkil etdikləri icmalar formalaşdırmaqdır. Bu sərhədləri vətənlərində digər ölkə vətəndaşı və fərqli mədəniyyətlərini saxlamaq istəyən immiqrantlar yarada bilər.

Ölkələr öz diasporlarını adlandırarkən *xaricdəki vətəndaşlar, daimi immiqrantlar, qeyri-rezident vətəndaşlar, immiqrantlar, beynəlxalq vətəndaşlar* kimi müxtəlif ifadələrdən istifadə edə bilərlər. Diasporlar ölkələrin siyasi tanınma səylərindən tutmuş inkişaf və yenidənqurma layihələrinin beynəlxalq səfərbərliyinə qədər geniş əlaqələr şəbəkəsinin mərkəzində dayanır. Bu səbəbdən diasporlar xalq diplomatiyasının aləti olaraq öz vətənlərinin mənafeyinə tövfə vermək qabiliyyətinə malikdirlər. Bu tövhələri aşağıdakı kimi sıralamaq olar: 1. Ölkələrinin dəyərlərinin izahına kömək etmək; 2. Yeni şirkətlərin böyüməsinə çalışmaq; 3. Ölkələrinin inkişafını və yardım səylərini dəstəkləmək; 4. Ölkələrinin beynəlxalq arenada inkişafını təşviq etmək. Geniş anlamda Mixail Balvak diasporun əhəmiyyətini belə izah edir: 1. Diasporlar qoyub getdikləri ailələrə maddi yardım etməklə iqtisadi çətinliklərin öhdəsindən gəlməyə kömək edirlər. Bu yardımlar ailədən başlayır və ölkənin ümumi iqtisadiyyatında öz əksini tapır. 2. Diasporlar öz vətənlərinə investor cəlb edə bildiyi kimi, özləri də yaşadıqları ölkələrdə investor olurlar. 3. Diasporlar həm də beynəlxalq sərhədləri keçməyə kömək etməklə beynəlxalq ticarətin inkişafına tövhə verirlər. 4. İki ölkə arasında elm və texnologiya transferlərində fəal rol oynayırlar. 5. Onlar öz ölkələrinin imicini və mədəniyyətini təbliğ edirlər. 6. İki ölkə arasında dostluq və əməkdaşlığı təşviq edirlər.

Diasporlar gəldikləri ölkələrin təbliğində aparıcı rol oynayırlar. Ev sahibi və ya immiqrasiya edilmiş ölkədə edilə biləcək ən yaxşı təşviqat bir ölkənin vətəndaşları vasitəsilə ola bilər. Diaspor icmalarının miqrasiya ölkəsinin insanları ilə münasibəti onların vətəni dərk etməsində həlledicidir. Diaspor diplomatiyası həm miqrasiya ölkəsində, həm də lazım gəldikdə öz vətənində diaspor icmalarının siyasi və ictimai fəaliyyətini əhatə edir. Lobbiçilik də bu funksiyalardan biridir və diaspor qrupları vətəni narahat edən elementar siyasi məsələlərdə vətənin xeyrinə lobbiçilik fəaliyyəti həyata keçirə bilər. Belə təşkilatları ABŞ-dakı Meksika diasporu, İngiltərədəki hind diasporu və Almaniyadakı türk diasporasında görmək olar. ABŞ-da yəhudi əsaslı qeyri-hökumət təşkilatları diaspor diplomatiyasının ən mühüm aktorlarından biridir. Yəhudi əsilli bu diaspor təşkilatları yaşadıqları ölkələrdə öz vətənlərinin mənafeyini müdafiə etmək üçün siyasi vəzifə götürüblər.

Bu gün diaspor anlayışı akademik mənada deyil, siyasi mənada işlədilir. Türkiyədə diaspor dedikdə ilk ağıla yəhudi, erməni və yunan diasporları gəlir. Öz diasporu ilə güclü əlaqələr qura bilən ölkələr iqtisadi baxımdan gəlirlidir. Belə ki, Çin dünyanın istehsal bazasına çevrilib, Hindistan diaspordakı mühəndisləri sayəsində dünyanın proqram bazasına çevrilib, İsrail diaspordakı mühəndisləri və sahibkarları sayəsində innavasiya mərkəzinə çevrilmək yolundadır. Türkiyə isə diaspor, lobbi kimi anlayışlarla ehtiyatla yanaşdığı üçün uzun illər diaspor potensialını reallaşdıra bilmədi [8, s.81].

Məlum faktdır ki, iqtisadi cəhətdən inkişaf edən ölkələr öz diasporlarına mədəni və sosial baxımdan önəm verirlər. Çünki ünvanlanan ölkədəki diaspor gücünün lobbiçilik təsiri həmin ölkədə fəaliyyətləri hər mənada asanlaşdırır. Çağımızda mədəni və sosial sahələrdə diasporun əhəmiyyətinə iqtisadi ölçü də əlavə edilmişdir. Son illər diaspor üzvlərinin ölkələrin bir-biri ilə ticarət fəaliyyətinin artırılmasına mühüm töhfə verdiyi müşahidə olunur. Bunun ən mühüm amili diaspora mənsub iş adamlarının olduqları ölkənin kommersiya və hüquqi şərtlərini, mənşəyinə görə mənsub olduqları ölkəni yaxşı bilmələridir. Məsələn, Türkiyənin ən çox ticarət etdiyi ölkə Almaniya olmasının səbəbi Almaniyadakı türklərin sayının 3 milyonu keçməsidir. Əslində Avropa İttifaqında türk əsilli sahibkarların ümumi sayının 120 mini, Avropada fəaliyyət göstərən türk bizneslərinin isə 50 milyard avronu keçdiyi təxmin edilir [9, s.62-63].

Diaspor ümumiyyətlə vətənə qayıtmayacaq və ictimai-siyasi dinamikasını formalaşdıran icmalardan ibarət olan, qonaq işçilər və qaçqınlar kimi qrupları özün-də birləşdirən anlayışdır. Transmilli kimlik prosesində bəzən etnik və dini motivlərlə öz istiqamətini tapan cəmiyyət üçün də istifadə oluna bilər. Ənənəvi diasporlar ilk mərhələdə heç bir ictimai formasiyaya rəhbərlik etməkdə fəaliyyət sahəsi olmayan, qaçqın və ya müstəmləkəçi hegemonluğun hökmranlığı altında olan bir cəmiyyətdə yaşayan bir seqmenti təşkil edir. Müasir diaspor xidmət müqabilində və ya mədəni səbəblərə görə yaşadıqları və institusional bir quruluş daxilində olduqları cəmiyyətlərin siyasi və ictimai hadisələrində söz sahibi olurlar. Bu səbəbdən türklər vətəni zorla tərk etmək və ya sürgün etməkdən fərqli olaraq iqtisadi, siyasi və təhsil kimi səbəblərlə köç edənlər kimi müasir diaspor kontekstində qiymətləndirilə bilər.

Xaricdəki türklər, nəhayət öz vətənlərinə qayıdacaq qürbətçi kimi baxılmağı dayandırdılar. Onların yaşadıqları ölkələrdə artıq qürbətçi və ya qonaq deyil, daimi olduqları barədə şüur yaranıb. Vətəndaşlıq məsələsi xaricdə yaşayan türklərin qonaq kimi deyil, iştirakçı kimi yaşaması və hüquqlarını qoruması üçün vacibdir. İkili vətəndaşlıq, xarici vətəndaşlığa keçid və mavi kart müraciəti bununla bağlı lazımi infrastrukturu təmin edir. Bundan əlavə, xaricdə yaşayan türklər məsələsində vətən həsrəti anlayışından diaspor anlayışına keçidlə bağlı aşağıdakı faktları qeyd etmək olar. 1. Qərbi Avropada məskunlaşan türklər mühacir olduqları üçün cəmiyyətlərinin mühüm elementinə çevrilmək statusu; 2. Onlar mənsub olduqları cəmiyyətə inteqrasiya etməklə dördüncü nəsilə çatmaları; 3. Qərbi Avropa ölkələrindən ibarət olan ölkə xaricindəki miqrantların coğrafiyanı genişləndirərək ABŞ, Rusiya Federasiyası və Mərkəzi Asiya türk respublikalarına yayılması; 4. Peşəkar menecerlərdən tutmuş biznes sahiblərinə, sənətçilərdən tutmuş idmançılara qədər yüksək statuslu seqmentlərin sayının artması.

Türkiyə diasporu 2009-cu ildə keçirilən "Dünya türk girişimcileri konqresi" ictimaiyyəti və qərar qəbul edənləri diasporu diqqət mərkəzində saxlamağa sövq edir. Digər tərəfdən, dövlət diasporu fəal olan ölkələrdə onların diasporları üçün xüsusi olaraq yaradılmış qurumların və bu qurumların üzərinə götürdüyü funksiyaların olmaması səbəbindən yaranan bolluqları doldurmağa çalışır. Xaricdəki türklərin Rəyasət Heyətinin yaradılması, Türk Mədəniyyət Mərkəzlərinin Yunus Əmrə İnstitutuna çevril-

məsi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinə (TİKA) verilən önəm və büdcənin artırılması kimi addımlar Türkiyənin diaspor mexanizmləri yaratmağa başladığının sübutudur[10, s.49].

Türkiyənin mənafeyinə xidmət edən mühitin yaradılmasında, əcnəbilərə özünü tanıtmasında, onları inandırıb təsir edərək müsbət imic yaratmaqda türk diasporunun böyük rolu vardır. Türkiyə diasporunun formalaşmasında və sosial-mədəni inkişafında intellektual orta təbəqənin, sosial və mədəni qeyri-hökumət təşkilatlarının, iqtisadi sahibkarların təsiri danılmazdır. Xarici İqtisadi Əlaqələr Şurasının keçmiş sədri Rifat Hisarcıklıoğlunun fikrincə, türk diasporu qlobal aktor olmaq və iqtisadi artıma nail olmaq üçün ən vacib dəyərlərdən biridir. Hisarcıklıoğlu həmçinin türk diasporunun məqsəd və vəzifələri haqqında bildirir: "5 May 2008-ci ildə İstanbulda DTİK Genişləndirilmiş Məsləhət Şurasının Toplantısını keçirdik. 2009-cu ildə keçirdiyimiz Dünya Türk Sahibkarlar Konqresi ilə təxminən 80 ölkədən 2000-dən çox türk sahibkar və mütəxəssisi eyni platformada bir araya gətirdik. İlk olaraq, konqres zamanı keçirilən seçkilərdə Türk diasporu anlayışını müsbət mənada istifadə etdik. Bu qurultay zamanı seçkilərdə DTİK rəhbərliyi tərəfindən Avropa Regional, Amerika, Avrasiya, Afrika-Orta Şərq-Körfəz, Asiya Sakit Okean Komitəsi və idarələrin rəhbər heyəti formalaşdırıldı. Dünya Türk İş Şurası (DTİK) olaraq sahibkarlar və iş adamları arasında effektiv ünsiyyət yaratmaq, türk sahibkarları və mütəxəssisləri elektron şəkildə bir araya gətirmək məqsədilə DTİK Əlaqə Platformasını (dtik.org.tr) təsis etdik. Bu arada hökumətimizin türk diasporu ilə bağlı institusional addımları, xüsusən də Xaricdəki türklərlə bağlı Nazirliyin yaradılması bizi motivasiya etdi. Məqsədimiz davamlı diaspor strategiyası ilə türk diasporunu dünyanın ən təsirli diasporlarından birinə çevirməkdir".

Avropadakı türk diasporu XX əsrin ortalarında kütləvi işçi qüvvəsi ilə formalaşmağa başladı və onu ailə birləşməsi, tələbələr, sahibkarların axını izlədi. Türk diasporu son illərdə köç edən yeni nəsil olsa da, artan geri dönüş vəziyyətinə cavab olaraq təkrar və çarpaz miqrasiya vəziyyəti də mövcuddur. Bundan başqa Avropadakı türk diasporunun digər diasporlardan etnik, dini, siyasi və sosial fərqini görmək olar.

Türkiyənin gələcək missiyalarından biri də türk diasporunu dünyanın ən təsirli diasporlarından birinə çevirməkdir. Xaricdə yaşayan türklərin vətəni, ana dili, doğma mədəniyyəti ilə bağlarını qoruyub saxlamaqla yanaşı, onların yaşadıqları ölkələrin həyatında sosial, iqtisadi, mədəni və siyasi baxımdan fəal iştirak etmələrinə şərait yaradılmalıdır. Türklərin yaşadıqları ölkələrdəki yaşayış şəraiti, mədəni fərqlilikləri, düşüncə tərzi hərtərəfli araşdırılmalı və ona uyğun diaspor strategiyaları müəyyən edilməlidir. Xüsusilə Qərbi Avropada üçüncü və gələcək nəsillər immiqrant statusunu dayandırdıqlarından yaşadıqları ölkələrin ya vətəndaşları, ya da ikili vətəndaşlarına çevrilmişlər. Bu nəsil yaşadıqları ölkənin dilini ana dili kimi öyrəndikləri üçün özünü daha rahat ifadə edə bilir. Türklərin Qərbi Avropaya işləmək üçün köçündən 50 ildən çox vaxt keçib və bu gün bu regionda 5 milyondan çox türk yaşayır. Bu rəqəmi gözardı etmək olmaz və bəzi ölkələrinin əhalisindən çoxdur. Əslində Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyinin rəsmi səhifəsində "Xaricdə yaşayan türk vətəndaşları" əsas Xarici Siyasət Məsələləri sırasında yer alır və xaricdəki türklərin mövqeyi belə çatdırılır: "Bu gün Xaricdə yaşayan türk icmasının əhəmiyyətli bir hissəsi yaşadıqları ölkələrin vətəndaşlığını da almışlar. Xaricdə yaşayan Türkiyə vətəndaşları artıq təkcə işçi deyil, həm də akademik, alim, həkim, mühəndis, hüquqşünas, jurnalist, iş adamı, sənətçi, siyasətçi və idmançı kimi qəbul edən ölkələrin siyasi, sosial, iqtisadi və mədəni həyatında peşəkarlar kimi iştirak edirlər.

Nəticə. Türkiyə Cümhuriyyətinin diaspor türkləri ilə bağlı siyasəti son 30 ildə formalaşmağa başladı. Diaspor diplomatiyası Türkiyədə AKP dövründə intensiv şəkildə öyrənilən bir sahəyə çevrilmişdir. Xaricdəki türklər və Qohum İcmalarla İş üzrə Nazirliyin yaradılması Türkiyədə diaspor diplomatiyası sahəsində institusionallaşmanın ilk nümunəsidir. Bu gün Türkiyənin hüdudlarından kənarda dünyanın 192 ölkəsində yaşayan 5 milyonu aşan türk diasporunun problem və ehtiyaclarını həll etmək üçün instutisional struktura ehtiyac olduğundan 2008-ci ildə "Xaricdə Yaşayan Vətəndaşlara Göstərilən Xidmətlərə dair Strategiya Sənədi"nin hazırlanmasına dair qərar qəbul edildi. 2009-cu ildə xaricdə yaşayan türk və qohum topluluqlar üçün bir qurumun yaradılmasına başlanıldı və 2010-cu ildə keçirilən "Türk soy və Qohum Topluluqlar Toplantısı" və Xaricdəki Türklər və Qohum Topluluqlar Nazirliyinin yaradılması ilə bu proses təşkilatlanma mərhələsinə daxil olmuşdur. Yarandığı gündən Xaricdəki Türklər və Qohum Topluluqlar Nazirliyinin büdcəsi dövlət xəzinəsi tərəfindən maliyyələşdirmiş və ayrılan vəsait mütəmadi olaraq artırılmışdır. Belə ki, Nazirliyin büdcəsinə 2010-cu il üçün ilkin ayrıl-

ma 10.419.456 TL [11], 2011-ci il üçün 18.660.000 TL [12], 2012-ci il üçün 33.283.000 TL [13], 2013-cü il üçün 167.211.000 TL [14], 2014-cü il üçün 194.504.000 TL [15], 2015-ci il üçün 223.896.000 TL [16], 2016-cı il üçün 247.691.000 TL [17], 2017-ci il üçün 277.803.000 TL [18], 2018-ci il üçün 285.828.000 TL [19] müəyyən edilmişdir.

ƏDƏBİYYAT

1. Əliyev Z. Diaspor: izahlı sözlük və məlumat kitabı. Bakı: Yurd, 2007, 376 s.
2. Cəfərov T. Erməni diasporunun antitürk fəaliyyəti. Ankara: Akçağ, 2021, 215 s.
3. Fırat Yaldız. Uluslararası Göç və Diaspora ile ilişkili kavramlar. İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi. C.3, №2, 2004, s.382-403.
4. William Safran. Diasporaların karşılaştırılması ve Yapısal Çözümlemesi. Diaspora ve Kimlik, Kömen Yayınları, Kasım 2015, s.95-133
5. Robin Cohen. Global Diasporas An Introduction Londra and New York. Routledge Taylar@Francis Group, 2008, s.240.
6. William Safran. Diasporas in Modern Societies: Mythsof of Homelend and Return, Diaspora 1, №1, 1991, c.83-99.
7. James Clifford. Diasporalar. Diaspora ve Kimlik. Konya: Kömen Yayınları, Kasım 2015, s.5-70.
8. Bahri Can Çalıcıoğlu. Dünyada Diaspora Stratejileri: Türk Diaspöorası İçin Öneriler. "Türk Diasporası və Türk dünyası: Vizyon 2023, İstanbul, Tasam Yayınları, Nisan, 44 s.
9. Muhlis Kaçar, "Küresel "Girişim" Gücü:TÜRK DİASPORASI…", Artı 90, sayı 1, Ocak 2012, 112 s. - https://www.ytb.gov.tr/uploads/resimler/dergiler_pdf/arti-01.pdf [03.10.2017].
10. Fatma Gül Şahin. Adalet və Kalkınma Partisi dönemi türk dış politikasının dönüşümü: diaspora diplomasisi önergi. Yükses Lisans Tezi. İstanbul, 2019, 112 s.
11. Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı, "2010 Faaliyet Raporu". - https://ytbweb1.blob.core.windows.net/files/resimler/activity_reports/2010-faaliyet-raporu.pdf [13.04.2019].
12. Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı, "2011 Faaliyet Raporu". - https://ytbweb1.blob.core.windows.net/files/resimler/activity_reports/2011-faaliyet-raporu.pdf [13.04.2019].
13. Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı, "2012 Faaliyet Raporu". - https://ytbweb1.blob.core.windows.net/files/Files/2012-faaliyet-raporu.pdf [13.04.2019].
14. Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı, "2013 Faaliyet Raporu". - https://ytbweb1.blob.core.windows.net/files/resimler/activity_reports/2013-faaliyet-raporu.pdf [13.04.2019].
15. Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı, "2014 Faaliyet Raporu". - https://ytbweb1.blob.core.windows.net/files/resimler/activity_reports/2014-faaliyet-raporu.pdf [13.04.2019].
16. Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı, "2015 Faaliyet Raporu". - https://ytbweb1.blob.core.windows.net/files/resimler/activity_reports/2015-faaliyet-raporu.pdf [13.04.2019].
17. Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı, "2016 İdare Faaliyet Raporu". - https://ytbweb1.blob.core.windows.net/files/resimler/activity_reports/2016-idare-faaliyet-raporu.pdf [13.04.2019].
18. Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı "2017 İdare Faaliyet Raporu". - https://ytbweb1.blob.core.windows.net/files/documents/2017_FAAL__YET_RAPORU_Digital.pdf [13.04.2019].
19. Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı, "2018 Yılı Kurumsal Mali Durum ve Beklentiler Raporu". - https://ytbweb1.blob.core.windows.net/files/documents/2018_YILI_KURUMSAL_MAL___DURUM _VE_BEKLENT__LER_RAPORU.pdf [13.04.2019].

ТАЛЕХ ДЖАФАРОВ
И.о.доцента кафедры Всеобщей истории и технологии преподавания истории АГПУ, доктор философии по истории

ШАБНАМ ДЖАФАРОВА
Преподаватель кафедры истории тюркских народов БГУ, доктор философии по истории

ПРОЦЕСС ФОРМИРОВАНИЯ ТУРЕЦКОЙ ДИАСПОРЫ

Диаспорские организации Турецкой Республики начали формироваться с 50-60-х годов 20-го века. Это значит, что организация и формирование турецкой диаспоры происходили в последние 60-70 лет. Первые турецкие мигранты, отправившиеся в Западную Европу, состояли из рабочей силы, позднее к этой группе присоединились и интеллектуалы. Сегодня организации турецкой диаспоры существуют в 192 странах мира. Только в странах Западной Европы (Германия, Франция, Нидерланды, Бельгия) проживает более 5 миллионов турецких диаспор. Общая сумма их богатства составляет более 50 миллиардов долларов. Среди стран, где турецкая диаспора в Западной Европе наиболее организована, одно из ведущих мест занимают Германия и Франция.

Ключевые слова: турецкая диаспора, лобби, диаспорские организации, структура.

TALEH JAFAROV
PhD in History, Associate Professor of the Department of General History and History Teaching Technology, ASPU

SHABNAM JAFAROVA
Lecturer of the Department of History of Turkic Peoples of BSU

THE FORMATION PROCESS OF THE TURKISH DIASPORA

Diaspora organizations of the Republic of Turkey began to emerge from the 50s and 60s of the 20th century. The first Turkish migrants who went to Western Europe consisted of the labor force, and later intellectuals also joined this group. The first Turkish migrants who went to Western Europe consisted of the labor force, and later intellectuals also joined this group. Today, there are Turkish diaspora organizations in 192 countries of the world. Only in Western European countries (Germany, France, Netherlands, Belgium) there are more than 5 million Turkish diaspora. The total amount of their wealth is more than 50 billion dollars. Among the countries where the Turkish diaspora in Western Europe is most organized, Germany and France occupy one of the leading places.

Keywords: Turkish diaspora, lobby, diaspora organizations, structure.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 noyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.e.d. İlqar Niftəliyev, t.e.d. İbrahim Zeynalov.